UNUTMA!

Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

Sıra	Rayonların adı	Sahəsi	Kənd və digər yaşayış məntəqələrinin sayı	İşğal zamanı əhalinin sayı	İşğal olunduğu tarix	Şəhidlərin sayı	Milli Qəhrəmanların sayı
1	Xankəndi	302 kv.km	25 (25)	18 min nəfər	1991	102 nəfər	—
2	Xocavənd	1458 kv.km	78 (78)	10 min nəfər	18.02.1992	145 nəfər	—
3	Xocalı	926 kv.km	65 (65)	12 min nəfər	26.02.1992	3200 (613)	10 nəfər
4	Şuşa	289 kv.km	30 (30)	25 min nəfər	08.05.1992	250 nəfər	3 nəfər
5	Laçın	1835 kv.km	126 (126)	60 min nəfər	18.05.1992	262 nəfər	5 nəfər
6	Kəlbəcər	1936 kv.km	124 (124)	68 min nəfər	02.04.1993	200 nəfər	2 nəfər
7	Ağdər	1705 kv.km	58 (58)	49 min nəfər	17.06.1993	145 nəfər	—
8	Ağdam	1094 kv.km	121 (80)	150 min nəfər	23.07.1993	5000 nəfər	15 nəfər
9	Cəbrayıl	1050 kv.km	90 (89)	59 min nəfər	23.08.1993	381 nəfər	6 nəfər
10	Füzuli	1392 kv.km	75 (51)	100 min nəfər	23.08.1993	1000 nəfər	8 nəfər
11	Qubadlı	802 kv.km	95 (95)	30 min nəfər	31.08.1993	200 nəfər	10 nəfər
12	Zəngilan	707 kv.km	83 (83)	35 min nəfər	30.10.1993	200 nəfər	3 nəfər
	Cəmi:	13490 kv.km	970	616 min nəfər	—	10085 nəfər	62 nəfər

Qeyd: *Mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

HƏRBİ XƏBƏRLƏR

AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRƏ YARDIM FONDUNA 70 MİLYON MANATA YAXIN VƏSAİT YIĞILIB

Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna bu il yanvarın 1-dək 69 milyon 847 min 993,83 manat, 211 min 791,88 ABŞ dolları və 1793,69 avro vəsait yığılıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılan Silahlı Qüvvələrə Yardım Fondu ordumuzun müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılmışdır. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməkliyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan olunmamış digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

Kaşın bildirib ki, ötən bir neçə il ərzində raketin yaradılması ilə bağlı mühüm işlər aparılıb. Məqsəd "İsgəndər-M" kompleksinin daha da təkmilləşdirilməsi, dəqiqliyinin təmin edilməsidir.

Onun sözlərinə görə, dekabrın əvvəllərində yeni raket sınaqdan uğurla keçib. Kompleks 5 tip aeroballistik raketlə təmin olunacaq.

ABŞ ELEKTROMAQNİT TOPUN SINAQLARINI YEKUNLAŞDIRIB

ABŞ Hərbi Dəniz Qüvvələrinin Yerüstü silah sistemləri Mərkəzi yeni yaradılan elektromaqnit topun sınaq testlərini bitirib, "Azeri-

Defence"in xarici mediaya istinadən verdiyi məlumata görə, elmi terminalogiyada "relsotron" adlandırılan bu top yüz kilometrlərə məsafədə hədəfi məhv edir.

Laboratoriya şəraitində həyata keçirilən sınaqlardan sonra silah Hərbi Dəniz Qüvvələrinin bazasında növbəti test mərhələsinə cəlb olunacaq. Silah gəmi üzərində öz təyinatı üzrə yoxlamadan keçiriləcək.

Topun 2020-ci ildə silahlanmaya qəbul olunacağı planlaşdırılır.

İSRAİLİN RAKET ƏLEYHİNƏ YENİ SİSTEMİ SİLAHLANMAYA QƏBUL OLUNUR

İsrail "Kela David" adlı yeni raket əleyhinə sistemin sınaqlarını yekunlaşdırıb.

Bu barədə xəbəri İsrail Müdafiə Nazirliyi yayıb. Məlumatda bildirilib ki, sınaqlar uğurla başa çatıb və 2016-cı ildən silahlanmaya qəbul olunması nəzərdə tutulub.

Bu sistem orduda mərhələli şəkildə "Hawk i Patriot" zenit-raket kompleksini əvəzləyəcək. Raketin ilk sınaqları 2012-ci ilin noyabrında həyata keçirilib.

"Kela David" sistemi ballistik-taktik raketlərlə mübarizə aparmaq məqsədilə yaradılıb. Raket 40-300 km məsafədə hədəfi məhv edə bilir.

YENİ AEROBALLİSTİK RAKET İSTEHSAL EDİLİB

Rusiyada "İsgəndər-M" operativ-taktik raket kompleksi üçün yeni aeroballistik raket yaradılıb.

"AzeriDefence"in məlumatına görə, "Rostex"in tabe qurumu olan "Vısokotoçnıye kompleksı" şirkətinin elmi-tədqiqat markazinin baş konstruktoru Valeriy

16075 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularından olan gizir Azər Hüseynov qərargahda şəxsi heyətin uçotu üzrə məsul icraçı vəzifəsində xidmət edir.

NÜMUNƏVİ XİDMƏT

DAXİLİ QOŞUNLARDA XİDMƏTİMLƏ FƏXR EDİRƏM!

O, 1981-ci il iyunun 17-də Füzuli rayonunda anadan olub. 1997-ci ildə orta məktəbi bitirən Azər Müdafiə Nazirliyinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2008-ci ildən etibarən Daxili Qoşunların 16075 saylı hərbi hissəsində xidmətini davam etdirir.

Nümunəvi xidməti, bilik və bacarığı ilə fərqlənən gizir A.Hüseynov xidmət rəisi tərəfindən də müsbət xarakterizə olunur. Qərargah rəisinin şəxsi heyətin uçotu üzrə köməkçisi kapitan Samir Məmmədov gizir A.Hüseynov haqqında danışarkən bildirdi ki, o, xidməti vəzifə borclarının icrasına ləyaqətlə yanaşaraq, şəxsi heyətin uçotuna, qeydiyyat blanklarının və sənədlərin qorunub saxlanılmasına hər zaman ciddi nəzarət edir. Həmçinin, xidmətə daxil olan sənədlərin icrası ilə əlaqədar DİN-in müvafiq

əmrini və digər rəhbəredici sənədlərin tələblərini bilir: "Gizir A.Hüseynov xidmətin məsuliyyətini dərk edərək, öz nəzəri biliklərinin və praktiki təcrübəsinin artırılması üçün daim səylə çalışır".

Hərbi xidmətin bütün çətinliklərinə baxmayaraq, döyüş hazırlığının qorunub saxlanılması üçün bütün qüvvəsini səfərbər edən və yoldaşlarına şəxsi nümunə olmağı bacaran hərbi qulluqçumuz şəxsi məsuliyyət hissinin onun üçün önəmli olduğunu vurğulayaraq, Daxili Qoşunların sıralarında xidmət etməkdən hər zaman qürur duyduğunu sözlərinə əlavə etdi.

leytenant N.Ağayeva

DAXİLİ QOŞUNLARIN İŞÇİLƏRİ ŞƏXSİ HEYƏTİN RAHATLIĞI ÜÇÜN ƏLLƏRİNDƏN GƏLƏNİ ƏSİRGƏMİR

Bu gün DİN-in mühüm tərkib hissəsi olan Daxili Qoşunlar müasir standartlara tam cavab verən, hərtərəfli şəraitə malik hərbi şəhərciklərlə təmin olunub. Hərbi şəhərciklərdə, o cümlədən hərbi hissələrdə yaradılmış səliqə-sahmanın, göz oxşayan yaşıllıqların qorunub saxlanılması, şəxsi heyət arasında sanitar-gigiyenik vəziyyət və bu qaydalara ciddi riayət olunması hissə rəhbərlikləri qarşısında duran məsələlərdən biridir. Qarşıya qoyulmuş bu və ya digər tələblərin yerinə yetirilməsində işçilərin də əməyindən geniş istifadə olunur. Əsgər yeməkxanasında xörəklərin hazırlanması, camaşırxanada şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlakların yuyulması və s. işlər mahz onlar tərəfindən həyata keçirilir.

Bu həm də hərbi hissələrdə yüksək döyüş hazırlığının qorunub saxlanılmasına xidmət edir. Yani əvvəllər bu işlərə müddəti hərbi qulluqçular da cəlb edilirdisə, artıq əsgər bütün gücünü döyüş hazırlığının yüksəldilməsi məqsədilə təlim və məşğələrdə peşə vərdişlərinin artırılmasına sərf edir.

Bəhs etdiyim mövzunu 12318 saylı hərbi hissənin camaşırxanasında çalışan mülki qadınların fəaliyyətilə davam etdirmək istərdim. İlk olaraq, onu qeyd edim ki, camaşırxana bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Xanım Musayeva, Nəzirə Hüseynova, Zəminə Məmmədova və Gülzaman Quliyeva artıq 20 ildən çoxdur ki, bu hərbi hissədə əsgərlərin qayğısına qalırlar. Bu işi sevə-sevə gördüklərini deyən "əsgər xanım"lar sanki öz doğma övladlarına qulluq etdiklərini bildirdilər. Qeyd etdilər ki, həftədə 1 dəfə hamam tədbirlərindən sonra çirkli əmlaklar yuyulur. Ütülənib qurudulduqdan sonra çeşidlənərək hər bir əmlak aidiyyəti üzrə bölmələrə təhvil verilir.

Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuan maşınlarda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir.

Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

Qoşunlarda işçi vəzifəsində çalışmaqlarına baxmayaraq özlərini hərbi hissənin hərbi qulluqçusu, əsgəri kimi hiss etdiklərini deyən xanımlar bundan sonra da üzərilərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirmək üçün səylərini artıracaqlarını bildirdilər.

baş leytenant T.Əlizadə

HİKMƏTLİ KƏLAMLAR

Gənclyin ruhunu istifadə edilməyən bir tarla kimi özbaşına qoysanız, orada gicitkən və tikandan başqa bir şey tapa bilməzsiniz.

İohan Vilhelm

Gənclik yeni nəsil deməkdir. Kökünə bağlı, əcdadının yolu ilə gedən, milli, mənəvi dəyərlərinə, sadiq, eyilməz, alnıaçıq, həm də tükənməz gücdür.

"Füyuzat" jurnalından

Zamanın hər parçasını milləti, vətəni adına dəyərləndirən gənclik uca missiyaları çiyinlərində daşıyan xalq qəhrəmanıdır.

"Füyuzat" jurnalından

Gənclik ona görə xoşbəxtdir ki, onun gələcəyi var.

Nikolay Vasilyeviç Qoqol

Dünyada ən ağıllı iş gənclikdə qazandığın elmi qocalıqda xərcləməkdir.

Ceyms Rendal

Hər bir millətin istər tərəqqisi, istərsə də tənəzzülü həmin millətin gənclərinin əlacaqları təbiyəsən asılı olur.

Uilyam Şekspir

Allah rəhmət eləsin

16073 saylı hərbi hissənin şəxsi heyəti polkovnik-leytenant Sultan Ağayeva **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12576 saylı hərbi hissənin şəxsi heyəti mayor Kamran Vahabova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti kapitan Orxan Badirxanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.
İlham ƏLİYEV

ƏSGƏR

№ 01 (467)
15 yanvar 2016-cı il
Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2015-ci İLİN SOSİAL-İQTİSADİ İNKİAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNAN İCLASI KEÇİRİLİB

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açıb.

Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqindən:

- Bu gün biz 2015-ci ilin yekunlarını müzakirə edəcəyik. Eyni zamanda, 2016-cı ildə görüləcək işlər haqqında danışacağıq.

2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşdi. Bizim regionumuzda isə iqtisadi böhranla yanaşı, siyasi və hərbi böhran müşahidə olunur. Əfsuslar ki, mövcud olan münaqişələr 2015-ci ildə öz həllini tapmadı. Əksinə, dünyada və xüsusilə bizim regionumuzda yeni təhlükə ocaqları yaranmışdır. Əlbəttə ki, bu hadisələr regionumuzun ümumi inkişafına mənfi təsir göstərmişdir. Yaxın Şərqdə - İraqda, Suriyada, Liviyada münaqişələr, qanlı toqquşmalar, müharibələr davam edir.

Əlbəttə, bu, bizi ciddi narahat edir. Çünki biz də bu regionda yaşayırıq və regionda baş verən hadisələr istər-istəməz bizə də öz təsirini göstərir. Xarici müdaxilə nəticəsində Yaxın Şərqdən artıq qaçqın, köçkün vəziyyətinə düşmüş yüz minlərlə insan Avropaya pənah gətirir. Yüz minlərlə insan həlak olmuşdur. Milyonlarla insan qaçqın, köçkün vəziyyətində yaşayır.

Ancaq bu gün Avropada buna miqrant bərhəri deyirlər. Mən dəfələrlə demişəm ki, bu, ilk növbədə, vətəninə, ənənəsinə, doğmalarına itirmiş insanlar üçün böhrandır. Onlar indi Avropaya sığınacaq tapmaq, canlarını qurtarmaq üçün pənah gətirirlər. Orada da onları nələr gözləyir, hamımız yaxşı görürük. Bununla bərabər, yaranmış bu vəziyyət istər-istəməz Avropada radikal qüvvələrin, İslamafobiya meyillərinin güclənməsinə gətirib çıxarır. Bu da çox təhlükəli meyildir.

Azərbaycan müsəlman aləminin ayrılmaz hissəsidir. Eyni zamanda, bizi Avropa ölkələri ilə dərin əlaqələr bağlayır. Biz siyasi, iqtisadi, enerji sahələrində, başqa sahələrdə uğurla əməkdaşlıq edirik. Biz həmişə çalışırıq ki, dinlərarası, sivilizasiyalararası dialoq daha da gücləndə. Biz bu işə öz töhfəmizi vermişik və öz nümunəmizi ortaya qoymuşuq. Ona görə bu gün dünyada yaşanan sivilizasiyalararası anlaşılmazlıq bizi narahat edir. Bu, çox təhlükəli meyillərdir. Azərbaycan öz tərəfindən çalışacaq ki, bu meyillərin yumşaldılması və müsbət məcraya yönəldilməsi üçün öz səylərini göstərsin.

Keçən il Türkiyə-Rusiya münasibətləri gərginləşdi. Təbiidir ki, bu, bizi çox narahat edir. Çünki hər iki ölkə bizim qonşumuzdur, yaxın dostumuzdur. Əlbəttə, bizim üçün, əminəm ki, Türkiyə və Rusiya üçün bu, arzuolunan vəziyyət deyil.

Bununla bərabər, bu yaxınlarda İran-Səudiyyə Ərəbistanı münasibətləri həddindən artıq gərginləşdi və diplomatik əlaqələr kəsildi. İran və Səudiyyə Ərəbistanı bizim üçün yaxın və dost ölkələrdir. İran ilə bizi birgə tarix, mədəniyyət birləşdirir, bir çox layihələr birgə icra edilir. Səudiyyə Ərəbistanı bizim üçün çox önəmli tərəfdaşdır. Yaxşı bilirsiniz ki, keçən il mənim Səudiyyə Ərəbistanına rəsmi səfərim yüksək səviyyədə keçmişdir. Mənə, eyni zamanda, Azərbaycan dövlətinə, Azərbaycan xalqına çox böyük qonaqpərvərlik göstərilmişdir. Müqəddəs Kəbənin qapıları üzümüzə açılmışdır. Eyni zamanda, Səudiyyə Ərəbistanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində həmişə birmənalı şəkildə Azərbaycanın mövqeyini dəstəkləyir, nəinki dəstəkləyir, hətta bu münaqişəyə və işğala görə Ermənistan ilə heç bir əlaqə saxlamır, diplomatik əlaqələr saxlamır. Yəni, İran-Səudiyyə Ərəbistanı münasibətlərində yaranmış gərginlik əlbəttə ki, bizi narahat edir. Çünki hər iki ölkə ilə bizim yaxın əlaqələrimiz var.

Bu gün burada regionda gedən proseslərlə bağlı öz fikirlərimi bildirərkən, eyni zamanda, ictimaiyyətə çatdırmaq istəyirəm ki, Azərbaycan bundan sonra da regionda sabitləşdirici rol oynamağa çalışacaq. Çalışacaq ki, risklər azalsın, əməkdaşlıq daha da dərinləşsin.

Əfsuslar olsun ki, 2015-ci ildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir irəliləyiş olmamışdır. Deya bilərəm ki, danışıqlar istiqamətində durğunluq müşahidə olunurdu. Sadəcə olaraq, ilin sonunda Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirilmişdir. Bu görüş də deyə bilərəm ki, formal xarakter daşıyırdı - görüş naminə görüş. Çünki 2015-ci ildə prezidentlər səviyyəsində görüş keçirilməmişdir. Ancaq bu görüşün heç bir faydası, yaxud da ki, nəticəsi olmamışdır. Bunun da səbəbi ondan ibarətdir ki, Ermənistan sülh istəmir. Status-kvonu nə qədər çox mümkündürsə saxlamaq istəyir, işğal olunmuş torpaqlardan çəkilmək istəmir və danışıqları sadəcə olaraq bir proses kimi qəbul edir, vaxt uzatmaqla məşğuldur və danışıqları sonsuz bir proses kimi gələcəkdə də görmək istəyir.

Biz bu məsələni bütün beynəlxalq tribunalarda qaldırırıq və qaldıracağıq, diplomatik və siyasi səylərimizi artıracağıq. Ermənistanı bundan sonra da bölgədə bütün layihələrdən kənarda saxlayacağıq, öz hərbi gücümüzü artıracağıq.

Azərbaycanın hərbi potensialı 2015-ci ildə böyük dərəcədə möhkəmlənmişdir. Biz bunu döyüş meydanında da görürük. 2015-ci ildə təmas xəttində Azərbaycan tam üstünlük təmin etmişdir və öz iradəsini diktə etmişdir. Onlarla işğalçı məhv edildi, Ermənistan rəhbərliyi panikadadır, isterikadadır, xarici qüvvələrə müraciət edir ki, onları müdafiə etsinlər. Ancaq sual olunur: Ermeni əsgərləri hansı torpaqda həlak olurlar? Azərbaycan torpağında həlak olurlar. Getsinlər, çəkilsinlər bizim torpaqla - rımızdan, bu zaman münaqişəyə son qoyular, heç kim həlak olmaz və sülh bərpa edilə bilər.

2015-ci ildə ölkəmizin həyatında tarixi hadisə baş vermişdir. İlk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Azərbaycan bu Oyunları ən yüksək səviyyədə keçirə bilmişdir. Baxmayaraq ki, Oyunların keçirilməsi üçün cəmi 2 il yarım vaxtımız var idi, biz bu Oyunları Yay Olimpiya Oyunları səviyyəsində keçirdik. Bütün Avropaya və dünyaya müstəqil ölkəmizin imkanlarını, xalqımızın qonaqpərvərliyini, gözəl Bakı şəhərimizi göstərdik. Azərbaycan reallıqlarını 6 min idmançı, minlərlə qonaq öz gözləri ilə görə bilmişlər. Bu reallıqlar bizim nüfuzumuzu daha da artırır və gələcəkdə Azərbaycana qoyulacaq investisiyaların həcmini, Azərbaycana gələcək turistlərin sayını artıracaq.

2015-ci ildə parlament seçkiləri keçirilmişdir. Bu da ölkəmizin həyatında əlamətdar hadisə idi. Parlament seçkiləri ədalətli, şəffaf və demokratiya şəraitində keçirilmişdir. Bütün beynəlxalq müşahidəçilər, o cümlədən Avropa Şurasının nümayəndələri, MDB ölkələrinin nümayəndələri və digər müşahidəçilər parlament seçkilərini birmənalı şəkildə yüksək qiymətləndirmişlər ki, seçkilər ədalətli, şəffaf şəkildə və demokratik şəraitdə keçirilmişdir. Bütün beynəlxalq rəy sorğuları da rəsmi nəticələri təsdiqləyir.

Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən:

- Biz 2016-cı ildə iqtisadi inkişaf templərini təmin etməliyik. Bu, asan məsələ deyil. Xüsusilə burada səslənən fikirlər və ümumiyyətlə, keçən il müşahidə olunan manzərə deməyə əsas vermir ki, 2016-cı ildə dünyada iqtisadi böhran başa çatacaq. Belə olan halda biz daha da səmərəli işləməliyik və iqtisadi inkişaf templərini daxili resurslar hesabına, düşünülmüş siyasət, islahatlar, o cümlədən struktur islahatları nəticəsində təmin etməliyik.

Xüsusilə qeyri-neft sektorunun inkişafı böyük əhəmiyyət daşıyır. Son illər ərzində bu istiqamətdə böyük işlər aparılmışdır. Əgər biz vaxtilə qeyri-neft sektorunun inkişafı ilə məşğul olmasaydıq, bu gün iqtisadi inkişafımız o qədər də uğurlu olmazdı. İqtisadi şaxələndirmə, qeyri-neft sektorunun inkişafı 2016-cı ildə iqtisadi sahədə əsas prioritet olacaqdır. Əminəm ki, biz bu il ərzində bu istiqamətdə daha da böyük uğurlara nail olacağıq.

Biz ölkəmizin valyuta ehtiyatlarını qoruyuruq və qorumalıyıq. Əvvəlki illərdə Neft Fondundan dövlət büdcəsinə böyük məblağdə transfert olunurdu. Bunun da təbii səbəbləri var idi. Biz çalışırdıq ki, əsas infrastruktur layihələrini maksimum tez bir zamanda icra edək və buna nail ola bilmişik. Bu gün deyə bilərəm ki, Azərbaycanda əsas infrastruktur layihələri icra edilibdir. Elektrik enerjisi ilə bağlı generasiya güclərimiz kifayət qədər böyükdür, qazlaşdırma uğurla aparılır, içməli su layihələri, yolların tikintisi. Yəni, Dövlət Neft Fondunun transfertlərinin məqsədi bundan ibarət idi ki, infrastruktur, biznesin inkişafı üçün daha yaxşı şərait yaradılsın və biz buna nail ola bilmişik. İndiki şəraitdə biz Neft Fondunun vəsaitini qorumalıyıq. Əvvəlki illərdə apardığımız siyasət davam etdirilə bilməz. Neft Fondundan dövlət büdcəsinə transfertlər bu il azalır və biz gələcəkdə də xüsusilə hər bir layihəyə, onun əhəmiyyətinə baxmalıyıq və mahz ondan sonra qərar qəbul edilməlidir.

Gömrük rəsmiləşdirilməsi və bütün idxal-ixrac əməliyyatları tam şəffaf aparılmalıdır. İnhisarçılığa qarşı daha da ciddi mübarizə aparılmalıdır. Hesab edirəm ki, bax, biz bu üç istiqamət üzrə fəal işləsək büdcə gəlirlərimizin məbləğini böyük dərəcədə artıra bilərik. Hesab edirəm ki, büdcəyə mövcud proqnozlardan daha çox vəsait daxil olmalıdır.

2016-cı ilin Dövlət İnvestisiya Proqramı yaxın günlərdə mənə təqdim edilməlidir. Bu proqramda əsas infrastruktur layihələri öz əksini tapacaqdır. Həmçinin dövlət sərmayəsi ölkəyə tez bir zamanda gəlir gətirə və idxalı əvəzləyə biləcək sahələrə qoyulmalıdır.

Biz nağd pul dövriyyəsi sferasını azaltmalıyıq. Nağdsız ödəmələr genişləndirilməlidir. Müxtəlif vasitələr var. Buna nail olmaq üçün, o cümlədən fiskal təşviq mexanizmləri tətbiq edilməlidir ki, şirkətlər maraqlı olsunlar ki, nağdsız əməliyyatlar aparılsın.

Deyə bilərəm ki, bütövlükdə son illər ərzində apardığımız islahatlar öz nəticəsini verməkdədir. Beynəlxalq iqtisadi və maliyyə qurumları Azərbaycanda iqtisadi sahədə aparılan siyasəti yüksək qiymətləndirirlər. Dünyanın ən böyük və mötəbər qurumlarından biri olan Davos Dünya İqtisadi Forumu Azərbaycanı iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə 40-cı yerə layiq görüb. Bu, doğrudan da böyük nailiyyətdir. Aparıcı reytinq agentlikləri 2015-ci ildə bizim müsbət reytinqlərimizi təsdiq edib - lər. Bu, doğrudan da çox böyük nailiyyətdir. Ancaq biz daha da səmərəli işləməliyik və hansı sahədə qüsur varsa, o qüsurlar, nöqsanlar aradan qaldırılmalıdır.

Bu il pensiya və əməkhaqqının qaldırılması nəzərdə tutulmalıdır. Hökumət təklifləri hazırlasın. Əlbəttə, indiki şəraitdə bunu etmək o qədər də asan məsələ deyil. Ancaq mən demişəm ki, biz çox güclü sosial siyasət aparırıq. Giriş sözümdə qeyd etdiyim kimi, sosial infrastrukturun yaradılması, ünvanlı dövlət sosial yardımının təmin edilməsi üçün çox ciddi addımlar atılmışdır. Böyük vəsait tələb edən addımlar atılmışdır. Ona görə, pensiyaların və əməkhaqlarının qaldırılması məsələsinə hökumət baxmalıdır, təkliflər vermalidir. Əlbəttə ki, dövlət büdcəsinə də düzəlişlər ediləcək, dürüstləşmə aparılacaq. Orada həm sosial təminat məsələləri və investisiyayönümlü məsələlər öz həllini tapmalıdır.

Mən manatın devalvasiyası ilə bağlı fikirlərimi artıq bildirdim. Bu, bizdən asılı olan məsələ deyildi. Bir daha demək istəyirəm ki, neftin qiymətinin 3-4 dəfə aşağı düşməsi, qonşu ölkələrdə milli valyutaların devalvasiyası bu addımı qaçılmaz etmişdir. Bizim vəzifəmiz bu vəziyyətdən minimum itkilərlə çıxmaqdır. Əminəm ki, biz buna nail ola biləcəyik. Dediyim o məsələlər öz həllini tapmalıdır.

Bu il iki yeni "ASAN xidmət" mərkəzi açılmalıdır - Masallıda və Qəbələdə. Beləliklə, "ASAN xidmət" mərkəzlərinin sayı 11-ə çatacaq. Bundan əlavə, səyyar xidmət göstərilir, on avtobus ölkəmizi dolaşır. "ASAN xidmət" Azərbaycan brendidir. Mən çox şadam ki, bəzi başqa ölkələr də bu təcrübədən istifadə edirlər. Düzdür, bəzi hallarda "ASAN xidmət"in təcrübəsinə istinad edilmir. Ancaq eybi yoxdur, bizim üçün əsas məsələ odur ki, Azərbaycan vətəndaşları bu xidmətdən yararlanırlar. İki il ərzində 7 milyondan çox müraciət olmuşdur. "ASAN xidmət"in, əgər belə demək mümkündürsə, xalq tərəfindən bəyənilmə əmsalı 100 faiza yaxındır.

Bu il Bakıda mötəbər beynəlxalq tədbir - Sivilizasiyalar Alyansının Qlobal Forumu keçiriləcək. Bu, dünya miqyasında çox böyük beynəlxalq tədbirdir. BMT-nin fəal iştirakı, dəstəyi ilə keçirilən tədbirlərdir. Mən çox şadam ki, növbəti Qlobal Forum Azərbaycanda keçiriləcək. Bu, Azərbaycanda həmin istiqamətdə görülən işlərə BMT tərəfindən verilən böyük qiymətdir. Bilirsiniz ki, Bakıda ənənəvi Humanitar forumlar keçirilir. Mədəniyyətlərarası Dialoq forumları bir neçə dəfə keçirilmişdir. Sivilizasiyalar Alyansının Qlobal Forumunun Bakıda keçirilməsi doğrudan da həm bizə verilən böyük qiymətdir, həm də ki bizim üçün böyük şərəfdir.

Azərbaycan sivilizasiyalararası dialoqun genişlənməsi üçün əlindən gələni edir. Əfsuslar olsun ki, getdikcə bu iş daha da çətinləşir. Mən giriş sözümdə bu məsələyə toxundum, bir daha demək istəmirəm. Bu il Azərbaycan qalışsaq da əfsuslar olsun ki, sivilizasiyalararası dialoqu daha az görürük. Biz daha çox sivilizasiyalararası, dinlərarası anlaşılmazlıq, inamsızlıq, toqquşmalar görürük.

Ancaq biz bu yoldan dönməyəcəyik. Azərbaycan çoxmilletli, çoxkonfessiyalı ölkədir. Bu, bizim böyük sərvətimizdir. Biz bu sərvəti qoruyuruq. Biz bunu özümüz üçün edirik. Əlbəttə, çox istərdik ki, başqa ölkələr də bizim təcrübəmizdən istifadə etsinlər. Başa düşünlər ki, dinlərarası münaqişə fəlakətə gətirib çıxarır. Başa düşünlər ki, müxtəlif dinlərin, millətlərin nümayəndələri bir yerdə yaşaya bilərlər, normal qardaşlıq, dostluq şəraitində yaşaya bilərlər, nəcə ki, Azərbaycanda yaşayırlar. Əlbəttə, biz bundan sonra da çalışacağıq ki, ölkə daxilində bütün bu məsələlər sağlam zəmində öz həllini tapsın, - nəcə ki, bu, bu gün bələdir, - regionda və dünyada dinlərarası, sivilizasiyalararası dialoq daha da dərinləşsin.

Bu Qlobal Forumun Azərbaycanda keçirilməsini, ümumiyyətlə, bu sahəyə verdiyimiz diqqəti və əldə etdiyimiz nailiyyətləri nəzərə alaraq mən bu ili Azərbaycanda "Multikulturalizm ili" elan edirəm. Azərbaycan multikulturalizmlə bağlı çox böyük işlər görüb. Azərbaycan nümunəsi göstərir ki, multikulturalizm yaşayır. Baxmayaraq bəzi siyasətçilər deyirlər ki, multikulturalizm iflasa uğrayıb. Bəlkə haradasa iflasa uğrayıb. Amma Azərbaycanda yaşayır və bu meyillər, bu ideyalar güclənir, ictimaiyyətdən də daha çox dəstək alır. Biz bu yolla gedəcəyik. Beləliklə, bu il Azərbaycanda "Multikulturalizm ili" elan olunur.

2016-cı ildə biz fəal işləməliyik. Dediyim bütün vəzifələr icra edilməlidir. Vəzifələrin icrası üçün mexanizmlər qısa bir zamanda işlənib mənə təqdim edilməlidir. Müvafiq qərarlar qəbul ediləcək ki, 2016-cı ili də biz uğurla başa vuraq.

TƏBRİK EDİRİK!

Yüksək xidməti və insani keyfiyyətləri, komandir qətiyyəti, peşəkarlığı ilə şəxsi heyəti arasında böyük nüfuz qazanmış, daxili işlər nazirinin müavini, Daxili Qoşunlar komandanı general-leytenant Şahin Məmmədovun 55 yaşı tamam oldu.

Düz 30 il əvvəl zabit kimi hərbi xidmətə başlayan Ş.Məmmədov torpaqlarımızda müharibə getdiyi bir vaxtda müstəqil Azərbaycanın Daxili Qoşunlarının sıralarında xidmətini davam etdirməyə başlamış, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüş əməliyyatlarında fəal iştirak etmiş, bu hərbi qurumun formalaşmasında, operativ taktiki, döyüş hazırlığının yüksəlməsində komandirlik sənətsi, hərbi bilik və bacarığı ilə fərqlənmişdir. Harada işləməsindən asılı olmayaraq, üzərinə düşən bütün vəzifələri, layiqincə doğrultmuş, dövlətçiliyimizin cinayətkar qəsdlərdən qorunmasında, qanunsuz silahlı dəstələrin ləğvində Daxili Qoşunların üzərinə düşən vəzifələrin icra edilməsində, şəxsi heyətin xidmət döyüş hazırlığının yüksəlməsində, maddi texniki təminatının ən müasir tələblərə uyğunlaşdırılmasında, dost və qardaş ölkələrin analoji qurumları ilə əməkdaşlığın genişləndirilməsində Şahin Məmmədov verilən tapşırıqları məsuliyyətlə yerinə yetirərək şəxsi nümunə göstərmiş, prinsipiallığı, peşəkarlığı, yüksək təşkilatçılıq bacarığı ilə həmkarlarının ehtiramını qazanmışdır.

Onun peşəkarlığı, idarəçilik bacarığı, xidməti uğurları ölkə və DİN rəhbərliyi tərəfindən layiqincə qiymətləndirilmiş, dəfələrlə müxtəlif mükafatlara layiq görülmüş, Azərbaycan Respublikasında ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunmasında, qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsində xüsusilə fərqləndiyinə, şücaət və igidlik göstərdiyinə görə «Hərbi xidmətlərə görə» və «Vətən uğrunda» medalları ilə təltif olunmuşdur.

Yanvarın 11-də yubileyi münasibəti ilə Ş.Məmmədovu qabul edən daxili işlər naziri, general-polkovnik Ramil Usubov onun dövlətçiliyə, peşə borcuna sədaqətini, yüksək insani keyfiyyətlərini xüsusi vurğulamış, Daxili Qoşunlara həvalə olunmuş mühüm vəzifələrin icrasında yüksək təşkilatçılıq və komandanlıq bacarığı nümayiş etirdiyinə, ictimai qaydanın qorunması, cinayətkarlığa qarşı mübarizə və qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsi üzrə əməliyyat-döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi xidmətlərinə, habelə anadan olmasının 55 illiyi münasibətilə onu DİN-in «Fəxri fərman»ı ilə təltif etmişdir.

Yüksək diqqət və etimada, bərəsində deyilən xoş sözlərə göre daxili işlər nazirinə minnətdarlığını bildirən general-leytenant Şahin Məmmədov onu əmin etmişdir ki, üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, dövlətə, dövlətçiliyə, ulu öndər Heydər Əliyevin ideyalarına daim sadiq qalacaqdır.

Dekabrın 30-da Daxili Qoşunların Baş İdarəsində "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni il" bayramları münasibətilə təntənəli tədbir keçirilib. Tədbirdə Daxili Qoşunların Baş İdarəsinin və Bakı qarnizonunda yerləşən hərbi hissələrin hərbi qulluqçuları iştirak edib.

Tədbiri giriş sözü ilə açan Mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov təməli Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan bu əlamətdar günün bütün dünyada yaşayan həmvətənlərimiz tərəfindən böyük təmtəraqla qeyd olunduğunu bildirib.

Daha sonra Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyətinə ünvanladığı təbrik məktubu oxunub.

Təbrik məktubunda qeyd edilmişdir ki, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu tərəqqi strategiyasını, milli birlik siyasətini uğurla davam və inkişaf etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü tədbirlər nəticəsində 2015-ci il ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisələrə zəngin olmuş, sabitlik və daxili təhlükəsizlik etibarlı qorunmuşdur. Yola saldığımız ildə nazirlik sisteminə fəaliyyətin təkmilləşdirilməsi, maddi-texniki təchizatın, sosial təminatın gücləndirilməsi, xidmət şəraitinin yaxşılaşdırılması şəraitində konkret tədbirlər görülmüş, cinayətkarlığa qarşı mübarizə, ictimai-təhlükəsizliyin təmin edilməsi sahəsində qanunla müəyyən edilmiş vəzifələr peşəkarlıqla yerinə yetirilmişdir.

Daxili işlər orqanlarının və Daxili Qoşunların I Avropa Oyunları zamanı, eləcə də dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə yönəlmiş hərəkətlərin qarşısının alınması üzrə xüsusi əməliyyatlarda üzərinə düşən mühüm vəzifələri yüksək səviyyədə həyata keçirdiyi vurğulanan təbrikdə vətənpərvərliyi, anda sədaqəti ilə seçilmiş şəxsi heyətin fədakar əməyinin dövlət başçısı tərəfindən yüksək qiymətləndirilməsi öz əksini tapmışdır.

Məktubda həmçinin Azərbaycan Respublikasına xidmətə görə daxili işlər orqanlarının əməkdaşlarına və Daxili Qoşunların hərbi qulluqçularına minnətdarlıq bildirilmiş, ictimai asayişin mühafizəsi, vətəndaşların hüquq və azadlıqlarının qorunması kimi məsul vəzifələrin şəxsi heyət tərəfindən bundan sonra da böyük əzmlə yerinə yetirilməcəyinə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin etimadını doğruldacaqlarına əminlik ifadə olunmuşdur.

Bayram tədbiri Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrinin konsert proqramı ilə davam edib.

Mətbuat xidməti

DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ "DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ" VƏ "YENİ İL" BAYRAMLARI MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLİB

HƏRBİ HOSPİTALIN 23-cü İLDÖNÜMÜ TƏNTƏNƏ İLƏ QEYD OLUNUB

Mərasimdə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun şəxsi heyətə ünvanladığı təbrik məktubu səsləndirilib

Yanvar ayının 11-də Daxili Qoşunların Hərbi Hospitalının yaranmasının 23-cü ili tamam oldu. Bu münasibətlə Hərbi Hospitalda təntənəli mərasim keçirilib. Mərasimdə hərbi hospitalın şəxsi heyəti, veteran həkimləri və digər qonaqlar iştirak edib.

Tədbirin rəsmi hissəsi Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb, Dövlət Himni ifa olunub.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun Hərbi Hospitalın yaranmasının 23-cü ildönümü münasibətilə şəxsi heyətə ünvanladığı təbrik məktubunun oxunması üçün söz hərbi hissə komandiri tibb xidməti polkovnik-leytenantı Şəmsəddin Heydərova verilib.

Hərbi Hospitalın Daxili Qoşunların şəxsi heyətinin sağlamlığının etibarlı təminatçısı kimi zəngin təcrübəyə malik olduğu vurğulanan təbrik məktubunda hərbi qulluqçularımızın sağlamlığının keşiyində duran tibb personalının xidmətlərinin müasir tələblərə cavab verdiyi qeyd olunub. Həmçinin, cənab Komandan hospitalın şəxsi heyətini əlamətdar gün münasibətilə təbrik edərək, vəzifələrinə məsuliyyətlə yanaşan tibb işçilərinin bundan sonra da peşəkarlıq səviyyələrini artıracaqlarına əminliyini ifadə etmişdir.

Daha sonra hissə komandirinin müalicə işləri üzrə müavini vəzifələrini icra edən tibb xidməti mayoru Şahin Şahmarov çıxış edib. O, Qarabağ döyüşləri zamanı tibb işçilərinin əzmkarlığı və fədakarlığından danışıb. Artıq bu gün veteran kürsüsündə əyləşən bir neçə zabiti misal göstərərək, onların Hərbi Hospitalda keçdiyi xidmət yolunun genci hərbi həkimlərə örnək olacağını nəzərə çatdırıb. Əlavə edib ki, o zaman - zəruri tibbi avadanlıqların çatışmadığı bir dövrdə həkim briqadası üzərinə düşən tapşırıqların öhdəsindən layiqincə gəlmişsə, bu gün müasir tibbi avadanlıqlarla təchiz olunmuş şəxsi heyət onlara göstərilən etimadı doğrultmağa borcludur.

Mərasimdə iştirak edən veteran həkimlər də ildönümü münasibətlə şəxsi heyəti təbrik edərək, arzu, istək və tövsiyələrini çatdırıblar.

Sonra hərbi hissə komandirinin əmrinə əsasən, xidməti vəzifə borclarını layiqincə yerinə yetirdiklərinə, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiklərinə görə 15 nəfər "Təşəkkür", 12 nəfər "Fərman", 8 nəfər "Qiymətli hədiyyə" və 6 hərbi qulluqçu "Vəzifə maaşı" ilə mükafatlandırıldı.

Tədbirdə maraqlı hadisələrdən biri isə üzerində "23 iliniz mübarək" sözü yazılmış tortun kəsilməsi anı idi. İki veteran və hərbi hissə komandirinin birgə kəsdiyi "ildönümü tortu" şəxsi heyətin ötən illər ərzindəki uğurlu fəaliyyətinin nişanəsi kimi tarixə həkk olundu.

Rəsmi hissə başa çatdıqdan sonra tədbir Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrinin solistlərinin konsert proqramı ilə davam etdirilib.

baş leytenant T.Əlizadə

Artıq yanvar ayının 1-dən etibarən Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına uyğun olaraq, DİN-in Daxili Qoşunlarında çağırışçıların həqiqi hərbi xidmətə qəbulu həyata keçirilməkdədir. Çağırışçılarla məşğələlərin keçirilməsi, mənəvi-psixoloji olaraq hərbi xidmətə hazırlanması, bütün növ təminat, ümumilikdə hərbi xidmətə tədrican uyğunlaşdırılması təsdiq edilmiş plana əsasən icra edilir.

ÇAĞIRIŞÇILARIN HƏRBİ XİDMƏTƏ QƏBULU DAVAM EDİR

Qəbul prosesi Daxili Qoşunlar Komandanlığının nəzarəti altında həyata keçirilməkdədir

Bu sahədə görülən işlərin, verilən tapşırıqların yerinə yetirilməsi ilə tanış olmaq, vəziyyəti yerində öyrənmək məqsədilə qoşunların 25031 saylı hərbi hissəsində oldum. Hərbi hissə komandirinin təbriyə işləri üzrə müavini polkovnik-leytenant Ramin Məmmədov bildirdi ki, çağırışçıların xidmətə qəbulu prosesi birbaşa olaraq Daxili Qoşunlar Komandanlığının ciddi nəzarəti altındadır. Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun göstərişinə əsasən, qəbula hazırlıq dövründə və hazırda Daxili Qoşunların Baş İdarəsinin məsul vəzifəli şəxsləri hərbi hissədə olur, çağırışçıların qəbulunna nəzarət edirlər.

Polkovnik-leytenant R.Məmmədov qeyd etdi ki, çağırışçılarla nəzərdə tutulmuş 45 günlük təlim dövründə bütün tədbirlər hissə komandiri tərəfindən təsdiq olunmuş plan əsasında həyata keçiriləcək.

Təlim dövründə sıra, ictimai-siyasi, fiziki və atəş hazırlığı məşğələlərinə xüsusi diqqət yetirilir. Daxili Qoşunların təyinatı və vəzifələri, istifadədə olan silahların taktiki-texniki xüsusiyyətləri, nişanalma və təhlükəsizlik qaydaları, hərbi qulluqçular arasında qarşılıqlı münasibətləri özündə əks etdirən məşğələlərə bərabər, Qanunvericilik aktları da çağırışçılara öyrədilir. Sonuncu həftədə isə praktiki atışlar yerinə yetirilir və hər bir əsgər fərdi qaydada qiymətləndirilir.

Sonra çağırışçıların qəbul məntəqəsinə "Seçim qrupu"nun fəaliyyəti ilə tanış oldum. Qəbul məntəqəsinə daxil olan çağırışçılar hərbi həkim komisiyasından keçməzdən əvvəl mənəvi-psixoloji hazırlıq şöbəsinin zabitləri tərəfindən fərdi söhbətə cəlb olunurlar. Söhbət əsnasında çağırışçıların mənəvi-psixoloji durumu, dünyagörüşü, vətənə bağlılığı, orduya münasibəti, sosial vəziyyəti, təhsili, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilir. Hərbi anda qətirilənədək bir qayda olaraq, onlara hərbi xidmətin üstünlükləri izah edilir, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslər aşılanır. Həmçinin, Daxili Qoşunların tarixi, döyüş yolu, qəhrəmanlıq nümunələri, eyni zamanda Silahlı Qüvvələrin Ali Baş Komandanı, Respublika Prezidenti cənab İlham Əliyevin şəxsi heyətə göstərdiyi diqqət və qayğı barədə ətraflı məlumatlar verilir.

Gənclərdə yuxarıda sadaladığım keyfiyyətlərin müəyyənləşdirilməsi, əslində, onların xidmət müddətində xarakterlərinə uyğun vəzifələrə təyin olunacağına zəmin yaradır.

Bütün bundan əsasən deyə bilərik ki, hərbi hissədə həyata keçirilən tədbirlər genc əsgərlərin Vətənə layiqli, əsl vətənpərvər hərbi qulluqçular kimi formalaşmasında mühüm rol oynayacaq.

leytenant N.Ağayeva

Şəhidlərimiz

QƏHRƏMANLIQ NÜMUNƏSİ...

XX əsrin sonlarında - Vətənimizin ağrı-acılı, qanlı-qadalı günlərində digər bölgələrimiz kimi Salyanın igid oğulları da silaha sarılaraq torpaqlarımızın müdafiəsinə qalxmış, hərb tariximizə qızıl hərflərlə yazılacaq qəhrəmanlıq nümunələri göstərmişlər. Torpaqlarımızın müdafiəsi uğrunda şəhidlik zirvəsinə ucalmış və əlil olmuş salyanlıların həyat və döyüş yolu buna bariz nümunədir.

XƏLİLOV NƏSİMİ MƏMMƏDAĞA OĞLU

Salyan rayonunun təkcə Qarabağlı kəndinin 20 nəfər igid oğlu bu müqəddəs amal uğrunda öz həyatlarını qurban verərək şəhidlik zirvəsinə yüksəlmişdir. Kən - din belə qəhrəman oğullarından biri də Daxili Qoşunların şəhid sıravi hərbi qulluqçusu Nəsimi Xəlilovdur.

Sıravi Nəsimi Məmmədağa oğlu Xəlilov 1973-cü il sentyabrın 9-da Salyan rayonunun Qarabağlı kəndində anadan olub. Şair Məmmədağa kişinin və Humay ananın böyüdüb boya-başa çatdırdığı doqquz övladdan (Əsəd, Nəbi, Vüqar, Qüdrət, Ehtiram, Xəlil, Aqil, Sərvər və Nəsimi) biri və eyni zamanda ailənin sonbeşiyi idi Nəsimi. 1980-ci ildə Qarabağlı kənd orta məktəbinin 1-ci sinfinə gedib. Hələ uşaq yaşlarından oxumağa böyük maraq göstərib.

Şəhid döyüşçünün qardaşı, könüllü olaraq Qarabağda erməni cəlladlarına qarşı vuruşmuş Ehtiram Xəlilov Vətən uğrunda canını qurban verən igid oğullarımızla qürur duyduğunu deyir:

"Nəsiminin timsalında respublikamızın azadlığı və suverenliyi uğrunda şəhid olmuş Vətənimizin qeyrətli övladları ilə fəxr edir, qürur duyuram. İnanıram ki, tezliklə müqəddəs torpaqlarımız azad olacaq və şəhidlərimizin intiqamı mənfur düşmənlərimizdən qətiyyətlə alınacaqdır.

Nəsimi barədə onu deyə bilərəm ki, olduqca sakit, mehriban, yerini bilən, tərbiyəli insan idi. Orta məktəbdə də yaxşı oxuyan və ləğlənən şagirdlərdən olmuşdu. Qarabağ müharibəsi bir çox həm - yaşıdları kimi Nəsiminin də talelərini yeni bir səhifə açmış oldu. Hələ orta məktəbdə oxuyarkən Qarabağa getmək, düşmənə qarşı vuruşmaq arzusu ilə yaşayırdı...".

Nəsimi Xəlilov 1992-ci il may ayının 17-də Salyan Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. Xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsində sıravi hərbi qulluqçu kimi yerinə yetirib. Bir müddət sonra Ağdama-döyüş bölgəsinə göndərilib. Ağdamın Aranzəmin, Şelli və bir sıra yaşayış məntəqələri uğrunda döyüşüb.

Sıravi N.Xəlilovun həmkəndlisi, eyni zamanda vaxtı ilə onunla birgə döyüşlərdə çiyin-çiyinə vuruşan əsgər yoldaşı olmuş Eldəniz Əliyev (Daxili Qoşunların sıravi hərbi qulluqçusu kimi 1993-cü ilin yanvarın 25-də Ağdam rayonunda Farux yüksəkliyi uğrunda gedən döyüşlərdə yaralanıb – A.Ə.) igid döyüşçü haqqında xatirələrini bizimlə bölüşərkən bunları dedi:

"Nəsimini hələ uşaqlıq vaxtlarından tanıyırdım. Orta məktəbdə bir sinifdə oxumuşuq. Sürücülük məktəbini də bir yerdə bitirmişik. Tale elə gətirdi ki, eyni hərbi hissənin tərkibində torpaqlarımızın müdafiəsi uğrunda gedən döyüşlərdə də iştirak etdik. Nəsimi olduqca mərd, qorxmaz hərbi qulluqçu idi. Bir döyüşçü kimi qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlirdi. Elə bu xüsusiyyətlərinə görə də yoldaşları arasında böyük hörmət və nüfuz qazanmışdı".

28.06.1992-ci il. Ağdam rayonunun Naxçıvanik (indiki Naxçıvanlı – A.Ə.) kəndi uğrunda şiddətli döyüşlər gedirdi. Nəsimi bu döyüşdə qəhrəmancasına şəhid oldu...

Bir gün sonra – iyunun 29-da igid döyüşçü dünyaya göz açdığı doğma Qarabağlı kənd qəbristanlığında dəfn olunub.

Salyan rayonu, Qarabağlı kənd 1 saylı tam orta məktəbinə şəhid Nəsimi Xəlilovun adı verilib. Məktəbin həyətində isə onun büstü qoyulub.

Rayonda nəşr olunan "Qələbə" qəzetinin 8 sentyabr 1995-ci il tarixli sayında Nəsiminin həyat və döyüş yolundan bəhs edən "Əsmə, acı yel..." başlıqlı məqalə dərc edilib. Məqalədə həmçinin şəhidin atası Məmmədağa kişinin övladının 22 yaşının tamam olması münasibəti ilə yazdığı şeirin 4 bəndi də verilib:

İndi iyirmi iki olubdur yaşın,
Qarabağda nələr çəkməyib başın.
Qəbrin üstə gelir dostun, sirdaşın,
Halına ağlayır qananlar sənin.

Nər igidi daim xatırlar eller,
Unutmaz heç zaman onu nəsiller.
Açanda lalələr, al-əlvan güllər,
Bəzər məzarını cavanlar sənin.

Söyləyirəm pünhan sirrim dağlara,
Fələk rəhm etmədi, bir tək ağlara.
Xəyalım dönəndə ötən çağlara,
Köksündə görünür yaralar sənin.

Məmmədağa oğul dərdin unutmaz,
Belə dərdi heç bir dərman sağaltmaz.
Keçən günlər, bir də geri qayıtmaz,
Yazılar adına dastanlar sənin...

Məlumat üçün qeyd edək ki, sıravi N.Xəlilovun həyat və döyüş yolu barədə məlumatlara həmçinin görkəmli ziyalımız Təyyar Nəsiblinin Salyan şəhidlərinə həsr olunmuş "Altında yatarkən də bizimdir yerin üstü" adlı kitabında və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında rast gəlmək olar. Bundan əlavə, sıravi N.Xəlilovun adı qoşunların Arxivində saxlanılan Daxili Qoşunlar üzrə "1992-1994-cü illərdə gedən döyüş əməliyyatları nəticəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı"nda 177-ci sıra nömrəsi ilə (Ağdamda) qeydə alınıb.

Sıravi N.Xəlilovun qəhrəmanlıqlarla zəngin ömür yolu bugünkü gəndərimiz üçün əsl nümunədir. Yurdumuza göz dikən neçə-neçə ermeni cəlladını məhv etmiş Nəsimi kimi qəhrəman oğullarımızın əziz xatirəsi xalqımızın qəlbində daim yaşayacaqdır.

Allah şəhidlərimizə rəhmət eləsin!

kapitan Anar Əhmədov,
Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri

P.S. *Məqalənin hazırlanması üçün müvafiq məlumatların əldə edilməsində göstərdiyi köməkliyə göre 67987 saylı hərbi hissənin hərbi qulluqçusu gizir Tural Hüseynova minnətdarlığımızı bildiririk.*

20 YANVAR - TARİXİMİZİN QAN YADDAŞI

Qatil gülləsinə qurban gedərkən,
Gözünü sabaha dikdi şəhidlər,
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Baxtiyar Vahabzadə

1990-cı il yanvarın 19-dan 20-nə keçən geca fövqəladə vəziyyət elan edilməndən Sovet İttifaqının qoşun hissələri Bakı şəhərinə və Azərbaycanın bir neçə rayonuna yeridilmiş, dinc əhaliyə divan tutulmuş, yüzlərlə insan qətlə yetirilmiş, yaralanmış, itkin düşmüşdür. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların böyük kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklərlə müşayiət edilmişdir.

Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və respublika rayonlarında ümumilikdə 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Həlak olanlar arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri də olmuşdur.

Yanvarın 22-də Bakıda şəhidlərin izdihamlı dəfn mərasimi keçirildi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev elə həmin tarixdə Azərbaycan KP MK-ya, Ali Sovetə, Nazirlər Sovetinə, Azərbaycan xalqına 20 Yanvar faciəsi ilə əlaqədar başsağlığı teleqramı göndərmişdi. O, teleqramın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mərasimində oxunmasını xahiş etsə də, buna əməl edilməmişdi.

Əslində "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" SSRİ Ali Soveti Rəyasət heyətinin fərmanı SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinin və Azərbaycan SSR Konstitusiyasının 71-ci maddəsinin tələblərinin pozulması ilə qəbul edilmişdi və bu fərmanın artıq fövqəladə vəziyyət tətbiq edilməndən, yüzlərlə insanın qanı axıdılandan sonra elan edilməsi həmin hərbi-siyasi aksiyanın Sovet İttifaqı Kommunist Partiyasının və Sovet dövlətinin rəhbərliyi, şəxsən Mixail Qorbaçov tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş cinayət və açıq təcavüz olduğunu təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı 3 yanvar 2005-ci il tarixli sərəncamda göstərilir: "20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş Vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".

Bəli, Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş bu tarixdə öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar.

Allah şəhidlərimizə rəhmət eləsin!

gizir L.Hüseynova

METODİKİ DƏRS VƏSAİTİ

DÖYÜŞ ŞƏRAİTİNDƏ HƏRBİ QULLUQÇULARIN DAVRANIŞLARININ PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

"Döyüş şəraitində hərbi qulluqçuların davranışlarının psixoloji xüsusiyyətləri" adlı dərs vəsaiti DİN Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin tədris şöbəsinin hərbi kafedralarında Ümumqoşun fənlər və atəş hazırlığı kafedrası rəisi polkovnik Saleh Rüstəmov tərəfindən hazırlanıb. Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov tərəfindən müvafiq tövsiyələr verilmiş vəsait Daxili Qoşunların bütün dərəcəli hərbi qulluqçuları ilə tədris prosesində "Hərbi psixologiya" fənni üzrə planlaşdırılan məşğələlərdə istifadə edilməsi və döyüşün müxtəlif növlərində hərbi qulluqçuların psixoloji xüsusiyyətlərinin öyrənilməsi üçün nəzərdə tutulub.

(əvvəli ötən saylarımızda)

VI Aparılmış psixoloji təhqiqatların nəticələri

Hücumun gedişi və nəticəsi bir çox hallarda hərbi qulluqçuların döyüşdən sonrakı davranışlarını və psixi vəziyyətlərini müəyyən edir. Döyüşdən sonra adətən hərbi qulluqçularda tənqidi düşünmək qabiliyyətinin yavaş-yavaş qayıtması, müəyyən işlər görməklə döyüş təəssüratlarından yayınmaq cəhdi, kommunikativ (ünsiyyət) "yuxululuğun" bir qədər azalması və dincəlmək istəyi müşahidə olunur.

Döyüş əməliyyatlarının uğursuz başa çatması halında hərbi qulluqçularda öz gücünə və düşmən üzərində qələbəyə, komandirlərin peşəkarlığına və digər məsələlərdə inamsızlıq əhvalı inkişaf edə bilər. Bu təəssüratlar böyük sayda insan tələfatı və döyüş texnikasının itkisi olduğu halda daha kəskin xarakter ala bilər. Belə ki, amerikalı psixoloq R.U.Storm hesab edir ki, öz qoşunlarından təcrid edilmiş bölmələrin hərbi qulluqçuların mənəvi ruhunun azalması nəticəsində onların döyüş imkanlarını 48 saat ərzində 50%-ə qədər itirilmiş hesab etmək olar.

Belə halların qarşısının alınmasına, hərbi qulluqçulara uğursuzluğun haqiqi səbəblərinin izah edilməsi, döyüş qabiliyyətinin bərpa olunmasının yollarının göstərilməsi, şəxsi heyətin sonrakı fəaliyyətlərə fəal şəkildə hazırlanması, düşmənə qarşı nifrət hissinin gücləndirilməsi (təbliğat və təşviqat işləri), psixi xəsarət almış hərbi qulluqçulara psixoloji yardımın göstərilməsi və s. ilə nail olmaq olar. Rus hərbi psixologu S.K.Gerşelman qeyd edir ki, "qoşunlar üçün başa çatmış döyüşün tamamilə məqsədsiz, faydasız olduğunu dərk etməkdən daha çox zərərli bir şey ola bilməz"... "Belə bir qənaət qoşunları, rəislərə və bələdlik də bütün sonrakı sərəncamlara inamı itirməyə vadar edir. Buna görə də komandirlər daima hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə saxlanması üçün onların qarşısında çıxışlar etmeli və sözün sehirli təsirindən bacarqla yararlanmağa çalışmalıdırlar".

N.Makiavelli qeyd edir ki, "Müharibə - hər bir qoşunu məhv edə bilən sonsuz sayda təsadüflər silsiləsidir, əgər sərkərdə əsgərlərə ünsiyyət qura bilmirsə və ya da buna alışmayıbsa, çünki söz qorxunu yox edir, ruhu alovlandırır, yenilməzliyi möhkəmlədir, yalanı ifşa edir, mükafat vəd edir, təhlükəni aşkara çıxardır, ümid verir, tərifləyir və ya rüsvay edir, ümumiyyətlə, insanı ehtirasları alovlandırma və ya mehvetmə qabiliyyətinə malik olan qüvvələri yarada bilir".

Əmrlərinin əsgərlər tərəfindən yerinə yetirilməsini gözləyən komandir nəzərə almalıdır ki, əsgərlər özləri komandirlərin onlara qayğı göstərməsini gözləyirlər. Öz komandirlərinin onları yaxşı tanıdıqlarına olan əminlik əsgərləri komandirlərin gözündə fərqlənmək üçün daha çox imkan axtarmağa məcbur edir, rüsvayçı və nalayiq hərəkətlərdən qaçmağa sövq edir. Komandirlərin nüfuzunun yüksək olması onlara inam hissinin və onların fəaliyyətlərinin düzgün olduğuna əminliyi daha da artırır. İran şahı Kambis oğlu Kirə nəsihətində deyir: "Sərkərdə və döyüşçü eyni gücə malik olsalar da, eyni bir işi fərqli şəkildə yerinə yetirə bilərlər. Ona ehtiramın göstərilməsini, həmçinin bütün əsgərlərin diqqətinin ona yönəldiyini dərk etdiyindən, ən çətin iş belə sərkərdə üçün əhəmiyyətli dərəcədə yüngülləşir".

1947-ci ildə Amerikalı general Marşall II dünya müharibəsində döyüşən piyada bölmələrinin veteranları ilə döyüş şəraitində əsgər və zabitlərin davranışlarını müəyyən etmək məqsədilə sorğu keçirmişdir. Məlum olmuşdur ki, əsgər və zabitlərin 25 %-dən az hissəsi döyüş zamanı düşmən tərəfə atəş açırdı. Şəxsi heyətin yalnız 2%-i şüurlu surətdə düşmənə atəş açırdı. Eyni vəziyyət Hərbi Hava Qüvvələrində də müşahidə olunurdu. Düşmənin vurulmuş təyyarələrinin 50 %-dən çoxu amerikalı pilotların cəmi 1%-nin öhdəsinə düşürdü. Təhqiqatlar zamanı məlum olmuşdur ki, harada ki, düşmən, bir insan, fərd və ya şəxs kimi qəbul edilirdisə (piyada döyüşləri, aviasiya duelləri və s.), orada ordunun fəaliyyətləri effektiv olmur və düşmənə dəyən bütün ziyanı praktiki olaraq şəxsi heyətin yalnız 2%-i təmin edirdi. Döyüş meydanında hərbi qulluqçular düşməni görməkdikdə isə tam başqa mənzərə alınırdı. Tank və aviasiya bölmələrində, həmçinin bombardıman aviasiyasında bu göstəricilər kifayət qədər yüksək olurdu.

Daha maraqlı bir fakt da ondan ibarətdir ki, hərbi qulluqçuların təqribən 25%-də əlin və ya şəhadət barmağının müvəqqəti iflici baş verirdi. Hətta hərbi qulluqçu solaxay idisə və sol əli ilə atəş açmalı idisə, o zaman iflic məhz həmin ələ və ya barmağa təsir edirdi. Fəşist Almaniyasının məğlubiyyətindən sonra üçüncü Reyxin arxivləri öyrənilərkən, demək olar ki, eyni statistikaya rast gəlinirdi. Şərq cəbhəsində nə əlin və şəhadət barmağının "donması" epidemiyası şəxsi heyətin 25%-ə qədərini yoluxdura bilmişdi.

Amerikalı psixoloqlar R.Suonk və U.Marşan Pentaqonun sifarişi ilə işləyərək, müəyyən etmişlər ki, əgər bölmə 60 gün ərzində fasiləsiz olaraq döyüş əməliyyatları apararsa, o zaman şəxsi heyətin 98%-i ağlını itirməyə başlayır. Qalan 2% isə psixoloqların fikrincə psixopatlardır. Həmin şəxslərin isə orduya çağırıldıqdan önca psixika